# Tarixi memarlıq ənənələri - gələcək perspektivlər






**10 aprel ölkəmizdə inşaat işçilərinin peşə bayramıdır. Prezident İlham Əliyevin 16 dekabr 2009-cu il tarixli Sərəncamı ilə təsis edilən İnşaatçılar Günü dünyanın ən qədim peşə sahiblərinin əməyinə verilən yüksək dəyərin əyani göstəricisidir.**

Qədim tarixə, zəngin maddi və mənəvi mədəniyyətə malik Azərbaycan xalqının inşaat və memarlıq sahəsində qazandığı nailiyyətlər onun milli sərvətidir. Böyük inkişaf yolu keçmiş bu sahə müasirliklə milliliyin vəhdəti, tarixi ənənələrin davam etdirilməsi istiqamətində bu gün daha da təkmilləşir. Qurmaq, tikmək, yaratmaq eşqi, abadlıq işləri xalqımızın canında, qanında var və günü-gündən daha da mükəmməlləşir.

Son illər gözəlləşən paytaxtımız, siması dəyişən şəhər və kəndlərimiz bu zəhmətkeş inşaatçıların hünəridir. Ölkənin sosial-iqtisadi tərəqqisində xüsusi əhəmiyyətə malik tikinti sektorunun inkişaf etdirilməsində, qısa müddət ərzində müxtəlif bölgələrdə genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsində yüksəkixtisaslı layihəçi, inşaatçı, memar və mühəndislərin əməyi əvəzolunmazdır.

Hələ X-XII əsrlərdə Azərbaycanda yaranan Aran, Təbriz, Naxçıvan, Şirvan, Abşeron memarlıq məktəbləri xüsusi önəm kəsb etmişdir. Yüzilliklər boyu ustadlarından öyrəndikləri bilikləri gənc nəslə ötürən inşaatçılar yaratdıqları yeniliklər, kəşflər və nailiyyətləri ilə hər zaman xalqımızın, o cümlədən dünya memarlıq məktəbinin inkişafına xüsusi töhfələr vermişlər.

Maddi mədəniyyətimizin qiymətli nümunələri - İçərişəhər, Qız qalası, Şirvanşahlar Saray Kompleksi, Mömünə Xatun türbəsi və digər tikililər memarların yaradıcılıq təxəyülü, inşaat işçilərinin gərgin əməyi sayəsində ərsəyə gələn şah əsərlərdir. İçərişəhər ərazisində yerləşən Qız qalası və Şirvanşahlar Saray Kompleksinin UNESCO-nun Qeyri-Maddi-Mədəni İrs Siyahısına daxil edilməsi bunu sübut edir. Azərbaycan memarlığı və tarixinin bir hissəsi, xalqımızın maddi-mədəniyyət irsinin qiymətli nümunəsi olan bu abidələr xalqımızın dünya mədəni irsinə böyük töhfəsidir.

Ölkəmizdə memarlıq işlərinin geniş vüsət alması XIX əsrin sonları, XX əsrin əvvəllərinə təsadüf edir. Ötən əsrin 70-ci illərində respublikamızda tikinti sektorunun inkişafı daha sürətlənmişdir. Şəhər və rayonlarda böyük istehsal müəssisələri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilmişdir.

Müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyev memarlıq və inşaat sahəsinə, bu işin peşəkarlarına daim qayğı ilə yanaşmışdır. Ulu öndərin zəngin dövlətçilik təcrübəsi sayəsində ölkəmizdə genişmiqyaslı quruculuq proqramı həyata keçirilmiş, tikinti sektoru sürətlə inkişaf etmiş, maşınqayırma, kənd təsərrüfatı, kimya, elektrotexnika, yüngül sənaye və digər sahələrdə onlarla nəhəng istehsalat obyektləri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilmişdir. Həmin dövrdə quruculuq işlərinin həcmi daha da genişlənmiş, inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi artırılmış, uzun illər bu sahədə çalışmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları mütəşəkkil qurucu qüvvəyə çevrilmişdir. Ulu öndərin tapşırığı ilə neftayırma, neft emalı zavodlarının, kimya və metallurgiya sənayesi və digər sahələrdə böyük həcmdə yenidənqurma işləri aparılmışdı. Kür su kəməri, metrostansiyalar, Yeni Bakı Neftayırma Zavodunun emal kompleksi, Bakı Məişət Kondisionerləri Zavodu, Qaradağ rayonunda nəhəng Dərin Özüllər Zavodu fəaliyyətə başlamışdır. Azərbaycanın tunel inşaatçıları respublikanın və keçmiş SSRİ-nin bir çox yerlərində müxtəlif təyinatlı nəhəng yeraltı qurğular quraşdırmış, dəmiryolu tunelləri, körpülər tikmişlər.

Hazırda dövlət başçımızın göstərişi ilə Qarabağ və Şərqi Zəngəzurda yüksək səviyyədə tikinti-abadlıq və quruculuq işləri həyata keçirilir. Quruculuq işləri yüksələn xətlə davam edir. Düşmən tərəfindən viran qoyulan Qarabağ və Şərqi Zəngəzur dövlətimizin gücü hesabına, inşaat işçilərinin böyük əməyi sayəsində yenidən dirçəlir. Burada yeni binalar, iaşə obyektləri tikilir, dağıdılan yaşayış məskənləri ilə yanaşı, tarixi-memarlıq abidələrimiz bərpa edilir.

Onu da qeyd edək ki, uzun müddət davam edən müzakirələr, yerli və xarici ekspertlərlə keçirilən görüşlərdən sonra ötən il Bakı şəhərinin Baş planı təsdiq olundu. Baş Plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə növbəti 20 il ərzində şəhərin əsas inkişaf prioritetlərini özündə əks etdirir. Həmçinin güclü və dayanıqlı inkişafı təmin edəcək mütəşəkkil çoxmərkəzli şəhər, ərazilərdən kompleks istifadə nəticəsində formalaşan dayanıqlı şəhər mühiti, mədəni və tarixi-memarlıq irsinin qorunması, nəqliyyat və sosial infrastrukturlar, kommunal sistemlər, ətraf mühitin təmizlənməsi və ərazilərin abadlaşdırılması tədbirləri, habelə postsənaye dövrünə keçidi təmin edəcək yeni şəhər iqtisadiyyatı məsələlərini özündə ehtiva edir. Bütün bunlar isə ölkəmizdə inşaat sahəsində çalışan fədakar insanların əməyi sayəsində həyata keçiriləcək.

**Bayram SALMANOV,**
**"Respublika".**